F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Həmişə yaşar Yaşar Nuri

**Xalq artisti, sevimli aktyor Yaşar Nurinin anadan olmasının 75 illiyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2026**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Həmişə yaşar Yaşar Nuri -** Xalq artisti, sevimli aktyor Yaşar Nurinin anadan olmasının 75 illiyi illiyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / tərt.ed. S. Könül; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2026. – 26 s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

## Bölmə I

## Həyat və yaradıcılığı

**“Mən xalqın tanıdığı, xalqın sevdiyi xalq artistiyəm”**

**Yaşar Nuri**

Bu gün Azərbaycan teatr və kino sənətinin əvəzolunmaz siması, Xalq artisti, Dövlət Mükafatı laureatı, unudulmaz sənətkar Yaşar Nurinin doğum günüdür. O, təkcə aktyor deyil, sənət aləmimizin nəhənglərindən biri, səhnənin və ekranın ruhunu yaşadan, tamaşaçının qəlbinə yol tapmağı bacaran nadir sənətkarlardandır.

Yaşar Nuri 1951-ci il sentyabrın 3-də Bakıda, sənət mühitində dünyaya göz açıb. Onun atası, tanınmış aktyor Məmmədsadıq Nuriyev, Azərbaycan kino və teatr tarixində silinməz izlər buraxmış sənətkarlardan idi.

“Yeddi oğul istərəm”, “Ulduz”, “Uşaqlığın son gecəsi”, “Sehrli xalat” kimi filmlərdə canlandırdığı obrazlarla yadda qalan Məmmədsadıq müəllimin sənət eşqi və istedadı təbii ki, oğluna da sirayət etmişdi. Beləcə, Yaşar Nuri doğulduğu ailədən sənət eşqini miras alaraq, öz taleyini səhnəyə bağladı.

Aktyorun səhnə həyatı çox erkən yaşlarında başlayıb. Cəmi 11 yaşında “Toy kimindir?” tamaşasında “Tapdıq” obrazını canlandıran Yaşar Nuri, daha sonra “Yelkən”, “Buratino”, “Qaranquş”, “Pioner” kimi uşaq verilişlərində çıxış edib. Səhnəyə olan sevgisi onu dram dərnəklərinə, ustad sənətkarlardan dərs almağa aparıb. Bu təməl, gələcəkdə Azərbaycan səhnəsinin əvəzolunmaz simasına çevrilən aktyorun sənət yolunu müəyyənləşdirdi.

Yaşar Nuri illər ərzində həm teatrda, həm də televiziyada saysız-hesabsız obrazlara can verib. Onun ifasında səhnə obrazları sözün əsl mənasında yaşayırdı. “Övlad” komediyasında Silva, “Bağlardan gələn səs”də Pərviz, “Od gəlini”ndə Altunbay, “Ölülər”də Məşədi Oruc, “Dəli yığıncağı”nda Sərsəm Salman, “Mesenat” əsərində Ağamusa Nağıyev, “Sevil”də Əbdüləli bəy və digər rolları tamaşaçılar tərəfindən xüsusi rəğbətlə qarşılanıb. O, istər dramatik, istərsə də komik janrlarda özünü mükəmməl göstərməyi bacaran aktyor idi.

Televiziya tamaşaları da Yaşar Nurinin sənət dünyasında mühüm yer tuturdu. O, “Evləri köndələn yar”, “Qatarda”, “Qonşu qonşu olsa”, “Yarımştat”, “Yaşıl eynəkli adam”, “Topal Teymur”, “Göz həkimi”, “Səni axtarıram” trilogiyası və digər teletamaşalarda yaddaqalan obrazlar yaradıb. Tamaşaçıların hafizəsində “Tamada Surxayzadə”, “Gülərin Həsənağası”, “Ac həriflərin Həsən dayısı”, “Çəkməçi Dadaşov”, “Fotoqraf Əli bəy” kimi rolları ilə əbədi iz qoyub. Onun obrazları sadəcə bir rol deyildi – xalqın içindən çıxmış, canlı, düşünən, danışan, hiss edən insanlardı.

Kinoda da Yaşar Nuri öz dəst-xəttini formalaşdırdı. “Dörd bazar günü”, “Bəyin oğurlanması”, “Ad günü”, “Yol əhvalatı”, “Yaramaz”, “Yuxu”, “Qətl günü”, “Fransız”, “Yoxlama” və digər filmlərdəki rolları ilə o, kinosevərlərin qəlbində yer aldı.

Həmçinin, “Subaylarınızdan görəsiniz” tamaşasına quruluş verməklə teatr rejissorluğunda da özünü sınamış, “Spasibo” filmi ilə kino sahəsində yaradıcılıq sərhədlərini daha da genişləndirmişdi.

Yaşar Nurinin aktyorluq tərzi onun qeyri-adi müşahidə qabiliyyəti, daxili intuisiyası və insan psixologiyasına dərindən bələd olması ilə seçilirdi. O, istənilən obrazı elə canlandırırdı ki, tamaşaçı onu sevməyə bilmirdi – bəzən gülürdü, bəzən kövrəlirdi, bəzən də dərin düşüncələrə qərq olurdu. Bu da aktyorun sənətə yanaşmasındakı səmimiyyət və ustalıqla bağlı idi.

Teatr aktyoru kimi görkəmli sənətkar olan Yaşar Nuri həm də məşhur kino ustasıdır. Onun böyük populyarlıq qazandığı çoxlu ekran obrazları var. Əlliyə yaxın bədii filmə çəkilib, Azərbaycan Dövlət Televiziyasında hazırlanmış yüzdən çox tamaşada, bədii kompozisiyada, satirik səhnəciklərdə iştirak edib. Bunlardan Ramiz Həsənoğlunun hazırladığı Ruhəngiz Qasımovanın “Yollar görüşəndə…”, “Ömrün yolları”, İsi Məlikzadənin “Qatarda”, Anarın “Evləri köndələn yar”, Mövlud Süleymanlının “Kökdən düşmüş piano”, Hüseyn Cavidin “Topal Teymur”, Aslan Qəhrəmanovun əsərləri əsasında Tariyel Vəliyevin lentə aldığı “Səni axtarıram”, “Bağışla”, “Səndən xəbərsiz” trilogiyası, İslam Səfərlinin “Göz həkimi”, Əbdürrəhim bəy Haqverdiyevin əsərləri əsasında “Ac həriflər” və s. televiziya tamaşalarını misal göstərmək olar.

Kinorejissor Şamil Mahmudbəyovun ekranlaşdırdığı “Dörd Bazar Günü” filmində yaratdığı Seyran obrazı Yaşar Nurinin kinoda ilk işi oldu. Onun maraqlı rollarından biri “Əzablı Yollar” nağıl-filmindəki kiçik div obrazıdır.

Böyük sənətkar 2012-ci il noyabrın 22-də, uzun sürən xəstəlikdən sonra dünyasını dəyişdi. O, İkinci Fəxri xiyabanda dəfn olundu. Lakin sənətkarın əbədi ünvanı Azərbaycan tamaşaçısının qəlbindədir.

Yaşar Nuri bizim sənət tariximizin canlı yaddaşı, səhnənin yaşayan ruhu idi. Onun doğum günü – sentyabrın 3-ü hər il xalqımız tərəfindən sənətə sədaqətin, istedada ehtiramın və böyük sənətkarlığın xatırlanma günü kimi yad edilir.

## Bölmə II
## Yubiley tədbirlərinin keçirilməsi

Vaxtilə böyük ingilis ədibi Vilyam Şekspir bildirirdi ki, həyat bir səhnədir, bizlərsə aktyoruq, hərə öz rolunu bir şəkildə səhnədə canlandırır. Vilyam Şekspirin bu bənzətməsi ilə razılaşsaq, onu da qeyd etmək lazım gəlir ki, bəziləri bu "həyat səhnəsi"ni vaxtından əvvəl tərk edir. Elə insanlar da var ki, həyatda elə aktyor olaraq rol oynayır. Belə görkəmli insanlardan biri də sevimli sənətkarımız, görkəmli aktyor, hər bir azərbaycanlının sevimlisi, Xalq artisti Yaşar Nuridir...

Bu gün unudulmaz sənətkar, Xalq artisti Yaşar Nurinin həyat və yaradıcılığından, sənət fəaliyyətindən söz açacağıq. Haqqında hazırladığımız metodiki vəsaitdə onun Azərbaycanın mədəni həyatındakı müstəsna xidmətlərindən danışıb, onu bir daha yad edəcəyik.

Müasir Azərbaycan mədəniyyətində özünəməxsus yer tutan Yaşar Nurinin zəngin yaradıcılığının oxucular arasında geniş təbliği üçün respublikamızın hər bir təhsil ocaqlarında, məktəb, lisey, gimnaziyalarda, kitabxana, muzeylərdə aktyorun 75 illik yubileyi ilə bağlı foto, kitab sərgiləri, müzakirələr, söhbətlər, ədəbi-bədii, xatirə gecələrinin keçirilməsinə start verilib. F.Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq, bizim də kitabxanamızda belə tədbirlərin keçirilməsi nəzərdə tutulub. İlk növbədə kitabxanamızın oxu zalında Yaşar Nurinin yubileyi ilə bağlı kitab və foto sərgi təşkil olunur. Sərgiyə müxtəlif başlıqlar vermək olar. Məsələn: "Xalq artisti Yaşar Nuri-75", "Xalqın sevimli aktyoru-Yaşar Nuri", "Unudulmaz aktyor-Yaşar Nuri", "Həmişə yaşar-Yaşar Nuri", "Qəlblərdə yaşayan-Yaşar Nuri" və s.

"Xalq artisti Yaşar Nuri-75" adlı sərginin nümunəsini veririk.

1. Başlıq: "Xalq artisti Yaşar Nuri-75"
2. Kitabların nümayişi
3. Dövrü mətbuatda çap olunmuş qəzət və məqalələrin kartotekası
4. Görkəmli insanların Yaşar Nuri haqqında söylədikləri
5. Yaşar Nurinin sitatları

"Televiziyada, kinoda çəkiləndə yoruluram. Amma səhnədə heç vaxt yorulmuram. Daha doğrusu bu yorğunluqdan ləzzət alıram"

"Həyat kino kimidir, ən şirin anda bitir"

"Mən xalqın sevdiyi xalq artistiyəm"

## Foto albom





















**Görkəmli şəxsiyyətlərin Yaşar Nuri haqqında söylədikləri**

60 yaş əsl kişi yaşıdır. İndi deməyə ixtiyarım çatır ki, mən xalqın tanıdığı, xalqın sevdiyi Xalq artistiyəm. Dostlarıma sadiq, torpağıma sadiq Xalq artistiyəm. Mən Akademik Dram Teatrının kollektivinə borcluyam. Onlar məni yetişdiriblər, səhvlərimə dözüblər. mən səhvlərimə borcluyam, böyük səhv yox ha, xırda səhvlərimə. Yenidən doğulsaydım yenə o səhvləri eləyərdim. əvvala, təzədən nöş doğuluram, nolub bəyəm, bayramzaddır?! Yaşar kimi oğullar əslində bir dəfə doğulur. Təzədən dünyaya gəlsəydim yenə bu sənəti seçərdim. Necə yaşamışam, o səhvlərimlə-nöqtəsi ilə, vergülü ilə, nidası ilə, apastrof moddan düşüb, apastrofu ilə yenə yaşayardım. Yaşamaq istəyirəm, həyatı həyat kimi yaşamaq istəyirəm!

**Yaşar Nuri,**
Xalq artisti

"Yaşar 70-ci ildə teatra gələn gənclərin arasında ən istedadlılarından biri idi. O, tez bir zamanda bacarığını göstərə bildi. Mən Teatr İnstitutunda oxusam da, Lütfi Məmmədbəyovun Xalq Teatrı ilə əlaqələrimi kəsmirdim. Bir gün o teatra gedəndə Maksim Qorkinin "Həyatın dibində" tamaşasının məşqləri gedirdi. Səhnədəki gənclər arasında balacaboy, gülərüz, bir az da dolu gənc diqqətimi çəkdi. Sonradan onun Yaşar olduğunu öyrəndim. Lütfi müəllim "mənim işim var, sən bunlarla məşq elə" deyib harasa getdi. Mən birinci Yaşarla məşq etdim və ürəyimdə "bu, gələcəkdə Azərbaycan teatrının istedadlı aktyorlarından olacaq", - dedim. Yaşar teatra gələn gündən uğur qazanmağa başladı. Biz onunla tamaşalarda tərəf-müqabil olduq. Tezliklə bu münasibətimiz dostluğa çevrildi. Bir qrim otağında tamaşalara hazırlaşırdıq. Sonradan televiziya tamaşalarında da birgə işlədik". Hərdən deyirdim ki, bilirsən sənin üstünlüyün nədir? Sən şirin aktyorsan. Yaşar doğrudan da şirin aktyor idi. Yeri gələndə mahnı oxuyurdu, yeri gələndə məzəli söhbətlər edirdi, güclü yumor hissi vardı".

**Hacı İsmayılov,**
Xalq artisti

"Biz bir-birimizin bioqrafiyasında iştirak etmişik. O, mənim ən maraqlı işlərimdə aktyor kimi çəkilib. Biz həm də ailəvi dost olmuşuq, övladlarımız dostluq ediblər. Yaşar aktyor sənətimizin tacı idi. Təsadüfi deyil ki, mənim əsərlərimdə bir yox, bir neçə rol oynayıb. Hətta "Qonşu qonşu olsa" tamaşasında 11 personajı canlandırıb. Heç kəs deyə bilməzdi ki, Yaşar komik, ya dramatik aktyordur. O, hər şeyi bacarırdı. Amma tamaşaçılar onu komik, yumoristik rolları ilə daha çox sevirdilər. Bir sıra tamaşa və filmlərdə ciddi obrazlar da yaratmışdı. Yaşar heç kəsə bənzəməyən, tayı-bərabəri olmayan bir aktyor idi".

**Ramiz Həsənoğlu,**
Xalq artisti

"Yaşar çox təbii aktyor idi. Təəssüf ki, belə istedadların ömrünü xəstəlik yarıda kəsir. Yaşarın yaratdığı obrazlar təkcə teatr və kino tariximizdə deyil, həmçinin tamaşaçıların yaddaşındadır. Onun adı çəkilən kimi üzlərə təbəssüm qonur. Hamı bir ağızdan "Allah rəhmət eləsin, yeri görünür" deyir. Təəssüf ki, Yaşarın davamçısı olmadı. Amma o, xalqın yaddaşında və mədəniyyət tariximizdə həmişə yaşayacaq. Özünün dediyi kimi: "Yaşar həmişə yaşardır".

**Afaq Bəşirqızı,**
Xalq artisti

"Yaşar Nurini ilk dəfə institutun 2-3-cü kursunda oxuyanda görmüşəm. Hər dəfə də məni görəndə saxlayıb "Sən Ofeliya Sənaninin qohumusan?" soruşurdu. Ya unudurdu, ya qəsdən sual verirdi, bilmirəm. Sonra təyinatla teatra gəldim. O vaxt fərqli tamaşalarda oynayırdıq, tərəf-müqabil deyildik. Bir gün rəhmətlik Tariyel Vəliyev məni dəhlizdə gördü və "Aslan Qəhrəmanovun "Səni axtarıram" pyesini verəcəm, onu oxu, əsərdə Gülnarın gülüşü var, onu səndə görürəm. Əsər iki nəfərlikdir" dedi. Mən həyəcanla: "O biri ifaçı kimdir?" deyə soruşdum. "Yaşar Nuriyev" deyəndə çox sevindim. O vaxt Yaşar çox populyar idi. Sevindim ki, sənətdə ilk addımlarımı atmağa başladığım bir vaxtda onun kimi aktyorla bir tamaşada oynayacam. Tamaşaya çəkiləndə Yaşarın üzünə baxa bilmirdim, yerə baxırdım. Rejissor hirslənirdi. Yaşar o vaxt mənə çox kömək etdi. Tamaşaçılar da bizi bir-birimizə o qədər yaraşdırdılar ki, sonradan bütün bayram verilişlərində tərəf-müqabil olduq. Hətta mən başqa aktyorla oynayanda o, pis olurdu, o başqası ilə oynayanda - mən...".

"Yaşarın səsi həmişə qulağımdadır. Məni görəndə sanki beş yaşında uşaq olurdu. Mənim üçün çox dəyərli, zirvədə olan aktyor olub. Sevinirəm ki, elə bir aktyorla tərəf-müqabil olmuşam. İndiyə kimi "Elçin-Gülnar", "Gülnar-Elçin" adları beynimə həkk olub. Nə qədər bu həyatda varıq, Yaşar qəlbimizdə və gözümüzün önündədir...".

**Firəngiz Mütəllimova,**
Xalq artisti

"Yaşar həmişə yadımdadır: oynadığı obrazlar, səhnədə canlandırdığı rollar daim gözümün önündə və ürəyimdədir. Bu, hər bir sənətkara nəsib olan xüsusiyyət deyil ki, həmişə yaddaşlarda qalsın, həmişə sevilsin, adı gələndə üzlərdə gülüş olsun". "Mən ondan çox şey öyrənmişəm. Yaşar Nuri daim qaynayırdı. Onun sənət fantaziyası həmişə müasir idi. Biz hamımız ondan öyrənirdik. Mən hələ də onun oynadığı obrazlara baxanda nəsə götürürəm. Onun hər hərəkəti, hər sözü, hər baxışı məktəbdir. Yorulmaq bilmədən işləyən bir insan idi...".

**Səidə Quliyeva,**
Xalq artisti

Əzəmətli aktyor idi və bu əzəmətin mayasında yaradıcı istedad, axtarışlarının təkamülü durduğuna görə o, ən böyük səhnə və ekran boşluğunu təkbaşına doldura billirdi.

**İlham Rəhimli,**
Sənətşünaslıq doktoru, professor

Yaşar Nuri canlandırdığı obrazları daxilən dərindən hiss etdiyindən, onu bütün varlığı ilə yaşadığından çəkilişlər bitəndən sonra da həmin obrazdan uzun müddət çıxa bilmirdi.

**Vaqif Mustafayev**,
Xalq artisti, kinorejissor

Y. Nuri cəsarətli aktyor kimi bütün qəliz rəqs nömrələrini, muğam və estrada, o cümlədən aşıq musiqisi üzərində qurulan satirik, dramatik, psixoloji, komik və karnaval estetikasına uyğun obrazların ifasında uğur qazanmaqla yanaşı, böyük tamaşaçı qəlbinə də yol tapıb.

**Azər Paşa Nemət,**
Xalq artisti

Biri-birindən maraqlı obrazlar yaradan aktyorun teatr və kino sənətinin inkişafında, formalaşmasında əvəzsiz xidmətləri olub.Yaşar Nuri teatr aktyoru kimi tanınmaqla yanaşı, həm də məşhur kino ustası kimi də sevilib.

**Ə.Vəliyev,**
Jurnalist

"Yadıma gəlmir ki, mən hansısa yeni bir işi başlayanda Yaşar gözümün qabağına gəlməsin. Hətta Yaşarın həyatda olmadığı vaxtlarda belə, istər-istəməz onun aktyor məharəti barədə düşünərək ona həmişə rol vermək istəmişəm...".

**Ramiz Həsənoğlu,**
Xalq artisti, rejissor

“Yaşar Nurinin oyununu hələ tələbə olarkən, rus dramaturqu Aleksandr Ostrovskinin “Günahsız müqəssirlər” əsəri əsasında hazırlanan tamaşadakı Neznamov rolunda görmüşdüm. Çox ciddi dramatik rol oynayırdı. Ondan bir kurs aşağıda oxuyurdum. Həmişə yuxarı kurs tələblərinin tamaşalarına gedib baxırdıq. Sonralar Yaşar Nurinin komik rollarını da gördüm. Hər bir rolunu içdən və inandırıcı oynayırdı.

**Nəcibə Hüseynova,**
Əməkdar artist

"Tələbəlikdən sonra Yaşarla bir teatrda işləyirdik. Sonra mən Sumqayıt Teatrına köçürmə ilə gəldim. Yenə Yaşarla bir tamaşada oynamışam. Mənim bütün rollarım elə Yaşarla bir tamaşada olmaqdır da. Yaşar sırf komik aktyor deyildi. O, xarakterik aktyor idi, hər cür rolun öhdəsindən gəlirdi.

**Əli Nur,**
Xalq artisti

Görkəmli sənətkar Yaşar Nurinin yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də kitab icmalıdır. Kitab icmalı oxuduğumuz əsərin məzmununu, əsas ideyasını qısa, anlaşıqlı şəkildə oxucuya çatdıralan bir tədbirdir. Tədbirin məqsədi oxucunu kitabla tanış etmək, onun nədən bəhs etməsini, hansı yaş kateqoriyasına aid olduğunu oxucuya çatdırmaqdan ibarətdir. Tədbirə bir çox sənət adamları, mədəniyyət sahəsində çalışan əməkdaşlar, fəal oxucular, İncəsənət universitetinin tələbələri dəvət olunurlar. Kitabxanaçı tədbiri açıq elan edir: Yaşar Nuri bir ömür içərisində onlarla insanın həyatını yaşayıb, oynadığı surətlərin ömrünü öz aktyor həyatına sığışdıra bilib. Onun yaratdığı rollar sayına və sanbalına görə əslində bir neçə sənətkarın yaradıcılıq bioqrafiyasına bəs edə bilərdi. Bu gün Azərbaycanda “ulduzlar” çoxdur, Yaşar Nuri isə Azərbaycan tarixində iz qoymuş ƏSl ULDUZlardan idi. Azərbaycan xalqı Yaşar Nurini özünün MİLLİ SƏRVƏTİ hesab edirdi. Hansı aktyorlarsa haçansa qocalırlar, köhnəlirlər. Yaşar Nuri isə heç vaxt qocalmadı, köhnəlmədi. Yaşar Nuri anadan olduğu vaxtdan aktyor peşəsinin daşıyıcısı olub. Allah onu elə bu missiya ilə göndərmişdi dünyaya, başqa sözlə, Yaşarın aktyorluğu qazanılmış, sonradan təhsillə və ya nəyləsə öyrənilən aktyorluq deyildi, o, anadangəlmə aktor idi. Bir sözlə Yaşar Nuri ümumxalq məhəbbəti qazanmış sənətkar idi. Bir ömür içərisində onlarla insanın həyatını yaşayıb, oynadığı surətlərin ömrünü öz aktyor həyatına sığışdıran bir aktyor idi. Yaşar Nurinin geniş yaradıcılığı ilə bağlı bir çox məqalələr yazılıb, kitablar nəşr olunub. Sənət və sənət adamları haqqında yazılan kitablar da bunlara misaldır. Beləki, sənətşünaslıq doktoru, professor İlham Rəhimli müxtəlif sənət ocaqları və sənət adamları barədə geniş tədqiqat xarekterli kitablar çox yazıb. Onun milli sənhə sənətimizə, səhnə ustadları barədə 20-dən çox monaqrafiyası, 100-ə yaxın kitabı dərc olunub. Belə kitablardan biri də bu gün müzakirəsinə yığışdığımız “Səhnə fədailəri” adlı kitabdır. Kitab “Şərq-Qərb” nəşriyyatı tərəfindən 2018-ci ildə nəşr olunub. Kitabda görkəmli, məşhur, unudulmaz, sıravi fədakar teatr xadimləri haqqında portret-oçerklər toplanıb. Uzun illərin yaradıcılıq axtarışları, geniş tədqiqatlar, ciddi araşdırmalar nəticəsində hasilə gələn və zəngin faktlar toplusundan ibarət olan bu

kitab 3 cilddən ibarətdir. Haqqında söhbət açacağımız kitabın 3-cü cildində bütün korifey sənətkarlarımızla yanaşı görkəmli komediya aktyoru Yaşar Nuri haqqında da söz açılıb. Yaşar Nuri...Görkəmli komediya aktyoru...Əsasən psixoloji və dramatik rollarda rol alıb...Yaşar Nuri imzası ilə çox səhnə obrazları yaradıb. Atası Məmmədsadıq Nuriyev Musiqili Komediya Teatrının məşhur aktyorlarından olub. Yaşar Nuriyev səhnədə yoldaşları ilə çox səmimi, səsi, görünüşü ürəyəyatan idi. Aktyorun səmimiyyəti ifa etdiyi səhnə obrazını tamaşa anlamından "çıxarır", onu seyrçinin həmsöhbəti, həmdərdi və yaxud mübahisə yöndaşı edirdi. Xarakterə həyatilik, dərinlik, estetik təravət, psixoloji genişlik, dramatik aydınlıq verirdi. Yaşar Nurinin səmimiyyəti səhnə ilə tamaşaçı salonu arasındakı "dördüncü" divarı götürür və seyrçi həm hadisələrlə, həm də ifaçının özü ilə bilavasitə ünsiyyətdə olurdu. Üstəlik, bu səmimiyyət tamaşaçını aktyora qarşı diqqətcil, ünsiyyətli, rəğbətli, hüsntəravətli, həssas və diqqətcil olmağa kökləyirdi. Yaşar Nuriyev, geniş mənada, bu keyfiyyətlərin hamısını illər boyu sənətkar müdrikliyi, ustad fəhmi ilə cilalayıb, formalaşdırmış, özünəməxsus estetik prinsiplərini müəyyənləşdirmişdi. Teatrdan əlavə, kinoda və televiziyada da bu estetik göstəriciləri həmin sənətlərin poetika xüsusiyyətlərinə uyğun tərzdə yaradıcılıq meyarına çevrilmişdi. Yaşar Nuri heç bir teatr, kino, televiziya rolunda özünü "gizlətmirdi". Biz səhnədə, ekranda və efirdə, ilk növbədə, aktyor Yaşarı görürdük. O, dinamik ritmlə, ancaq psixoloji ahənglə, yumorlu pillələrlə obrazı ətə-qana doldurur, onun əsərdəki sosial-ictimai tutumunu, fərdi-psixoloji portretini cızırdı. Özü dəyişmədən obrazda dəyişmək peşəkarlığın çox yüksək zirvələrindən biridir. Sənətkar Yaşar Nuriyev bu əzəmətli zirvəni möhtəşəm sənət qələbələri ilə çoxdan fəth etmişdi. Kitabda Yaşar Nurinin keçdiyi həyat yolundan, oynadığı yüzdən çox tamaşalardan, bədii kompozisiyalardan, satirik səhnəciklərindən, filnmlərdəki rollarından geniş söz açılır, bu rolların tamaşaçılar tərəfindən necə sevildiyi bildirilir. Yaşar Nurinin teatr aktyoru kimi məşhur olduğu qədər, kino ustası kimi də məşhurluğu qeyd olunur. Onun populyarlıq qazandığı ekran obrazlarından geniş söhbət açılır. Həmçinin teatr sənətindəki böyük uğurları, aldığı mükafatlar kitabda öz əksini tapır. Tədbirin geniş və maraqlı olması üçün kitabın müəllifinə söz verilir. Sənətşünaslıq doktoru İlham Rəhimli kitabın araya-ərsəyə gəlməsindən söz açır, vurğulayır ki, Yaşar Nuri kimi əzəmətli aktyor və bu əzəmətin mayasında yaradıcı istedadın durduğu, axtarışlarının təkamülü, və ən böyük səhnə və ekran boşluğunu məhz aktyor özü təkbaşına doldura bilirdi. Təbdirdə bir çox sənət adamlarına da söz verilir. Onlar da öz növbələrində aktyor haqqında maraqlı, yaddaqalan müzakirələr edir, daha sonra kitabla yaxından tanış olub, videoçarxa baxırlar. Bu gün haqqında çox, sevə-sevə danışdığımız Yaşar Nuri yaddaqalan obrazları ilə həmişə xalqımızın ürəyində yaşayacaq. Təkrarsız və bənzərsiz istedada malik bu sənətkar özünəməxsus lirik koloritlə tamaşaçıların rəğbətini həmişə qazanıb və istənilən azərbaycanlının sevimli aktyoruna çevrilib. Özünəməxsus səhnə mədəniyyəti və davranışı, improvizə qabiliyyəti, yaradıcılıq istedadı, obrazlara məxsusi yanaşma tərzi onu bir çox aktyor yoldaşlarından, həmkarlarından

fərqləndirirdi. Onun film və tamaşalarda səsləndirdiyi bəzi fikirlər az qala hər birimizin dilində gündəlik işlədilən və tez-tez rast gəldiyimiz ifadəyə çevrilib. Yaşar Nurinin səsləndirdiyi "Sənə əjdaha lazımdır?", "Hə, nolsun", "Ay moment" və s. ifadələr bugünkü gündə tez-tez dilimizdə işlədilir və hər dəfə "Yaşar Nuri demişkən" söylənilib bu böyük sənətkarımız yad edilir. Bütün bunlar böyük aktyorumuza olan rəğbətdən irəli gəlir. Belə bir məşhur fikir var: "Dünya bir pəncərədir, hər gələn baxar gedər..." Həqiqətən də belədir, lakin kimlərsə bu pəncərədən çox baxır, kimlərinsə ömür payına "pəncərədən" az müddət baxmaq nəsib olur... Yaşar Nuri də bu "həyat pəncərəsindən" az müddət baxa bildi. Ancaq bu gün böyük sənətkarımızın əziz xatirəsi yaratdığı obrazlarla yad edilir və hər zaman ürəklərdə yaşayır. Kitabxanamızda aktyorun geniş yaradıcılığı ilə bağlı keçirilən tədbirlərdən biri də poeziya axşamıdır. Yaşar Nuri sənət adamı olduğu üçün onun yaradıcılığı çoxşaxəli və maraqlıdır. Elə bu baxımdan da onun yaradıcılığına bir daha müraciət edəcəyik. Görkəmli yazıçı və akademik Kamal Abdulla unudulmaz teatr və kino aktyoruYaşar Nuri ilə həm tələbə yoldaşı, həm də yaxın dost olmuşdular. Yazıçı dostunun vəfatından sonra onun əziz xatirəsinə, Yaşar Nurinin bənzərsiz aktyorluq istedadına, insani keyfiyyətlərinə və keçdikləri ortaq gənclik illərinə həsr olunmuş olduqca təsirli xatirə yazıları və esselər qələmə almışdır ki, bunlardan da birini sizlərə təqdim edəcəyik. "Köhnə nağıl tək" adlı essedən parçaları oxucular səsləndirir.

**Köhnə nağıl tək…**

Vaxt gəlir, hər şeyin yetişir sonu,
Bu nəydi qurtardı, yox oldu, getdi?
Bu da bir həyatdı oynadıq onu,
Bu da bir oyundu, yaşadıq, bitdi.

**Kamal Abdulla**

Həzin payız səhərlərinin biri soyuqqanlı bir telefon səsi məni yuxudan oyatdı. Elə bil, telefonun bu soyuq səsi əvvəlcədən yaxşı xəbərin carçısına oxşamırdı. Elə də oldu. Bir müddət sonra Bakı küçələrinə hüznlü bir xəbər yayıldı televiziya və radio dalğalarından…

… «Səhnəmizin böyük AKTYORu, USTAD SƏNƏTKAR Yaşar Nuri noyabr ayının 22-də səhərə yaxın vəfat etdi… Allah rəhmət eləsin». Mənə görə, SƏNƏTKARlar vəfat eləmir, sadəcə dünyalarını dəyişirlər. Yəni, bu dünyadakı missiyalarını başa vurub, ötəki dünyada onlara veriləcək yeni görəvin başına keçirlər. Yaşar Nuri də buradakı həyatı oynadı, yaşadı və bitdi…

**Pərdə açılır, bu, bir səhnədir…**
**Tamaşaçılar, nə qədər çiçək…**
**Kimsə əl çalır, kimsə əl edir,**
**Hər şey tanışdır, köhnə nağıl tək.**

Pərdə açılır… Yenə səhnə… Yenə tamaşaçı… Yenə gül-çiçək yağışı… Və yenə də YAŞAR NURİ… elə köhnə nağıl tək…

Bu dəfə də səhnədə təkdir Yaşar Nuri. Yenə də Akademik Milli Dram Teatrının tamaşaçı zalında anşlaqdır. Təkcə zalda yox, dəhlizlərdə, foyedə insan əlindən iynə atsan yerə düşməz. Sənət dostlarından tutmuş adi tamaşaçıya qədər, hamı onun NURUNA, İŞIĞINA toplaşıb. Amma bu nə tamaşadır, nə yubiley gecəsi… Bu YAŞAR NURİylə vida mərasimi…

**Nağıl belə başladı…**

1951-ci il sentyabr ayının 3-də Bakının Sovetski deyilən küçəsində dünyaya bir körpə gəlmişdi. Sənətçi ailəsində… Hamı aktyor Məmmədsadıq Nuriyevə gözaydınlığı vermişdi. O da oğlunun doğuluşuna hədsiz dərəcədə sevinmişdi, vaxt gələcək Azərbaycan teatr və kino sənətinin böyük SƏNƏTKARı olacağını bilmədən.

Zaman keçir, ata anlayırdı ki, oğlu adi uşaqlardan deyil. Onun elə bu qeyriadiliyini duyub da əlindən tutub səhnəyə gətirmişdi – Azərbaycan Dövlət Musiqi Komediya Teatrının səhnəsinə…

Səhnəyə ilk dəfə on bir yaşında dramaturq Məhərrəm Əlizadənin «Toy kimindir?» tamaşasında Tapdıq rolunda çıxmışdı. Məktəbli vaxtlarında Dövlət Televiziyasının «Yelkən» verilişinin aparıcılarından olmuşdu. Bundan başqa o, «Buratino», «Qaranquş», «Pioner» uşaq verilişlərində müntəzəm iştirak etmişdi. Müxtəlif dram dərnəklərinə getmiş, 26-lar adına mədəniyyət sarayı xalq teatrının tamaşalarında çıxış etmişdi.

Uşaq Yaşar gözgörəsi fitri istedada malik idi. O, cəld, çevik, bacarıqlı, hazırcavab idi. Şirin, xoşagəlimli çöhrəsi vardı. Uşaq Yaşar rol oynayarkən gözləri gülürdü.

10 yaşından Azərbaycan televiziyasında uşaq verilişlərində çəkilən və teatr səhnələrində uşaq rollarını ifa edən qəhrəmanım 1968-ci ildə Bakıdakı 173 nömrəli orta məktəbi bitirib Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olmuşdu. Orada kurs rəhbərləri, tanınmış səhnə xadimləri Rza Təhmasib və Əliheydər Ələkbərovdan aktyorluq sənətinin incəliklərini öyrənmişdi.

İnstitutda, fakültədə, kursda Yaşar qeyri-formal liderə çevrilmişdi. Tələbəlik çağlarında hamı ondan çox şey gözləyirdi, hamı onu «hazır aktyor» hesab edirdi. Haqları da var idi… Çünki Yaşarın istedadı yaşından yaşlı idi.

1972-ci ildə institutu bitirdikdən sonra 1 il orduda xidmət etmiş və institutun tədris teatrında aktyor işləmişdi. 1974-cü il dekabr ayının 1-də Akademik Milli Dram Teatrıın baş rejissoru Tofiq Kazımovun dəvətilə bu kollektivin aktyor truppasına qəbul olunmuşdu.

**Nağıl davam edir…**

Nağıl qəhrəmanımın yaradıcılıq fəaliyyəti çoxşaxəli idi: teatr, kino və televiziya.

Televiziyada onun böyük şöhrət qazandığı çox sayda ekran obrazları var idi. Əlliyə yaxın bədii filmə çəkilmişdi, Azərbaycan Dövlət Televiziyasında hazırlanmış yüzdən çox tamaşada, bədii kompozisiyada, satirik səhnəciklərdə iştirak etmişdi. Onun əsasən baş rollarını ifa etdiyi teletamaşalar televiziyanın qızıl fondunda və yeddidən yetmişə hamının yaddaşında əbədi sənət nümunələri kimi qorunur. Hansını birini

deyim?.. «Yollar görüşəndə»də Yaşar… «Evləri köndələn yar»da Surxayzadə… «Qatarda»da Dadaşov… «Kökdən düşmüş piano»da Nəriman… «Topal Teymur»da Cücə… «Səni axtarıram», «Bağışla», «Səndən xəbərsiz»trilogiyasında Elçin… «Göz həkimi»ndə Həsənağa… «Ac həriflər»də Həsən dayı, çəkməçi, şəhər sakini, qəzet oxuyan… «Yarımştat»da Muxtar bəy… «Nigarançılıq»da Qurbanəli bəy… «Ordan-burdan»da Fotoqraf Əli bəy… «Yaşıl eynəkli adam»da Kazım… «Fatehlərin divanı»nda Sərsəri şair… «Qonşu qonşu olsa»da on bir müxtəlif tip və saymaqla bitməyən obrazlar ordusu…

O… həm də radio və kinostudiyanın dublyaj sektoru ilə əməkdaşlıq etmişdi, radioda «Sabahınız xeyir», «Gülüş axşamı» yumoristik verilişlərinin, radio tamaşalarının iştirakçısı olmuşdu. «Azərbaycanfilm» kinostudiyasında isə saysızhesabsız yerli filmləri səsləndirmiş, əcnəbi filmləri dublyaj etmişdi.

O… cəsarətli aktyor kimi qəliz rəqs nömrələrini, muğam və ya estrada, yaxud aşıq musiqisi üzərində qurulan satirik, dramatik, psixoloji, komik, qroteskli, karnaval estetikasına uyğun obrazların ifasında uğur qazana bilmişdi.

O… olmasaydı filmlərimizin dadı, duzu, ləzzəti olmazdı. Makintoşsuz («Yol əhvalatı»), İsrafilsiz («Bəyin oğurlanması») Azərbaycan kinosunu necə təsəvvür etmək olar?! Ya «Yaramaz»dakı Maşalla, «Yoxlama»dakı Direktor, elə «Yuxu»dakı Polis – bunların da bir özgə ləzzəti var…

Amma deyəsən, qəhrəmanım canlı səhnəni daha çox sevirdi axı… Belə də deyirdi: «Televiziyada, kinoda çəkiləndə yoruluram. Amma səhnədə heç vaxt yorulmuram. Daha doğrusu, bu yorğunluqdan ləzzət alıram».

Qəhrəmanımın yaradıcılığı dörd teatrın səhnəsindən keçdi: Akademik Milli Dram Teatrı… Opera və Balet Teatrı… Musiqili Komediya Teatrı… Kukla Teatrı….
Tamaşaçı onu daha çox Akademik Milli Dram Teatrının səhnəsində gördü, bəyəndi və sevdi. O, bu teatrda obraz dalınca obraz yaratdı…
Qəhrəmanım xalqın qəhrəmanıdır…
O…Azərbaycan SSRİ-in Əməkdar Artisti oldu-1981-ci ildə
O…Azərbaycan SSRİ-in Xalq Artisti oldu-1989-cu ildə
O…Azərbaycan Respublikasının Dövlət Mükafatı aldı, "Yaramaz" filmindəki Maşallah roluna görə-1991-ci ildə
O… "Qızıl Dərviş" Mükafatını aldı-1992-1996- cı illərdə
O…Azərbaycan Respublikası Prezidentinin I dərəcəli mükafatçısı və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü oldu-2025-ci ildə
O…"Şöhrət" ordeni aldı-2011-ci ildə
O…Milli Kino Mükafatı aldı-2012-ci ildə
Nəhayət O…xalqının əbədi qəhrəmanı oldu-2012-ci ildə

Nağılın sonu…
Kaş ki, hər şey nağıllardakı kimi xoşbəxt sonluqla bitsəydi…
Amma neyləmək olar? Doğulan bir gün ölür, nağıldan nağıla dönür…

Qəhrəmanım da nağıla döndü, kim bilir, bəlkə elə xoşbəxt sonluq da elə bu deməkdir?!
Pərdə enəcək, hər şey bitəcək,
Mən getməliyəm, sən getməlisən.
Hər şey dumanda,çəndə itəcək,
Mən itməliyəm, sən itməlisən.
Pərdə enir…Yaşar Nurinin tamaşalarına canlı səhnədən, sevdiyi səhnədən son səslənişi qulaqlarımda cingildəyir:
Bu da bir həyatdı oynadıq onu,
Bu da bir oyundu, yaşadıq bitdi.
Pərdə açılır, bu, bir səhnədir…
Tamaşaçılar, nə qədər çiçək…
Kimsə əl çalır, kimsə əl edir,
Hər şey tanışdır köhnə nağıl tək.
Səhnədə bizik – sənsən və mənəm,
Bir də sevgimiz – tükənməyəcək.
Sən yenə mənim sevgi dəfinəm,
Hər şey əzizdir köhnə nağıl tək.
Hamı dəribdir son nəfəsini,
Nə gözləyir bu adamlar bizdən?!
Qaçıb hər şeydən, udub səsini,
Bayılıcaqlar hənirtimizdən.
Nə gözləyir bu adamlar bizdən?!
Bilirmi onlar pərdə düşən tək
Qaçıb, gizlənib naməhrəm gözdən
Bizim sevgimiz ölüb gedəcək?!
Bilirmi onlar, bilirmi onlar,
Bu eşqin ömrü bir tamaşadı?!
Hər şey bitəcək, hər şeyə son var,
Bizi ancaq bu səhnə yaşadır.
Amma necə də bizə baxırlar,
Bu eşqimizi ölməz bilirlər.
Amma nə böyük ürəkləri var,
Göz yaşlarını gizli silirlər.
Sən yenə böyük, sən ölməz idin,
Və sən sevirdin, and içərəm mən.
Və sən sevirdin, bəli, sevirdin,
Mənim sevimlim, mənim biçarəm.
Pərdə enəcək, hər şey bitəcək,
Mən getməliyəm, sən getməlisən.
Hər şey dumanda, çəndə itəcək,

Mən itməliyəm, sən itməlisən.
Bizi səhnəyə çıxaranlara
Öz eşqimizi bir də oynayaq.
Burada oyun axtaranlara
Həyat bəxş edək, həyat biz ancaq.
Və çıxıb gedək, və nifrət edək
Pərdə enən tək bir-birimizə.
Bu bir sirdir köhnə nağıl tək,
Məxsusdur bizə, agahdır bizə.
Alın yazımız belə yazılıb,
Bu sirli sevgi indi bitəcək.
Bax elə indi, lap azca qalıb,
Hər şey aydındır köhnə nağıl tək
Pərdə bağlanır, bu da son, axır,
Mıxlanmışıq biz buraya nədir?
Bəs niyə bizi göz yaşı boğur –
Bu ki oyundur, bu ki səhnədir.
Pərdə bağlanır, bitir sevgimiz,
Biz getməliyik, xoş qalın sizi.
Pərdə bağlanır, bəs nə üçün biz
Yenə sevirik bir-birimizi?!

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında sevimli aktyorumuz Yaşar Nurinin yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə oxucuların çox sevdiyi tədbirlərdən biridir. Beləki, tədbir iki hissədən ibarət olur. Birinci hissədə aktyorun həyat və yaradıcılığı haqqında geniş çıxışlar olur, ikinci hissədə isə aktyorun rol aldığı tamaşalardan səhnəciklər göstərilir.

**“Mən xalqın sevdiyi xalq artistiyəm”** adlı ədəbi-bədii gecənin nünunəsini sizlər üçün təqdim edirik. Səhnə gül-çiçək dəstələri ilə bəzədilir. Aktyorun portreti səhnənin divarından asılır.



Tədbir sözləri Xalq şairi Vahid Əzizə, musiqisi Əməkdar artist Elza Seyidcahana aid olan "Mən aktyoram" musiqisi ilə başlayır. Aparıcılar səhnəyə daxil olur.
I Aparıcı: Sənət həyatını bütünlüklə ona həsr edənləri yaşadır. Xalq artisti Yaşar Nuri (3.9.1951 –22.11.2012) də 61 illik ömür payının 50 ilini sevib-seçdiyi aktyorluq sənətinə həsr etdi. Çoxşaxəli yaradıcılığının hər məqamında peşəsini ali səviyyədə təqdim etdiyinə görə dünyasını dəyişdikdən sonra da qəlblərdə, düşüncələrdə yaşayır, unudulmayıb.
3 sentyabr tarixi Azərbaycanın görkəmli sənətkarı, komik, psixoloji və dramatik rolların məharətli ifaçısı, Xalq artisti, Dövlət Mükafatı laureatı Yaşar Nurinin doğum günüdür. Yaşar Nuri 1951-ci il sentyabr ayının 3-də Bakıda tanınmış aktyor Məmmədsadıq Nuriyevin ailəsində dünyaya gəlib.
Məmmədsadıq Nuriyev həm teatr, həm də kino səhnəsində dramatik və komik rollar ifaçısı kimi yadda qalıb. Bu rolları eyni ustalıq və məharətlə ifa etdiyi üçün teatr aləmində onu "vücud" ləqəbi ilə çağırırmışlar.
Məmmədsadıq Nuriyev Azərbaycan kino tarixində bir sözü ilə yadda qalan yeganə aktyordu. Onun "Uşaqlığın son gecəsi" filmində ifa etdiyi Davud obrazının dilindən dediyi iş sosiska da deyil, adam gərək "vnimatelni" olsun sözlər bu günə qədər də insanlar tərəfindən xatırlanır.
11 yaşından səhnəyə çıxan, "ilk müəllimim də, ustadım da atam olub" deyən sənət aşiqi teatr, kino fəaliyyətində özünü milyonlara sevdirməyi bacarıb. Yerli və xarici dramaturqların əsərləri əsasında hazırlanan tamaşalarda istedadını, bacarığını təsdiqləyən aktyor səhnə fəaliyyətinin ilkin mərhələsindən etibarən kinematoqrafçıların da diqqətini çəkib. Yuxarıda qeyd etdiyimiz kimi, Yaşar Nurinin teatr və kino sənətinə gəlişində atasının çox böyük rolu olub. Belə ki, aktyor uşaq yaşından oğlunu özü ilə teatra, çəkiliş meydançasına aparırmış. Həmçinin Yaşar Nuri tamaşalarda uşaq rollarında iştirak edirmiş. Dramaturq Məhərrəm Əlizadənin "Toy kimindir?" musiqili komediya tamaşasında məktəbli ikən Qoşunun oğlu Tapdıq rolunda səhnəyə çıxıb.
II Aparıcı: Yaşar Nuri müsahibələrinin birində bu haqda deyir: "Atamla keçmiş "26-lar bağı"nda Ordubadi adına yay teatrına getmişdik. Oturub aktyorların məşqinə baxırdım. "Toy kimindir?" operettasında Qoşunun oğlunu oynayan aktyor xəstələnmişdi. Teatrın aktyoru Şünasi atamın razılığını aldıqdan sonra məni səhnəyə çağırdı. Diqqətlə baxdıqdan sonra sevincək dedi: "Vücud, bu, hazır aktyordur, mən ölüm...". Şünasi masanın arxasına keçib atamın bazarlıq edib yanına qoyduğu kağız torbanın üstünə oynayacağım rolun sözlərini yazdı. Qoşa Qala qapısından evə gələnədək rolumu əzbərlədim. Axşam yenə teatra getdim və deyilənlərə görə, rolu pis oynamadım. Çox keçməmiş, "Hacı Qara"da Hacı Qaranın oğlu Bədəl rolunu mənə verdilər". "Azərbaycanfilm" Kinostudiyasında istehsal olunan "Dörd bazar günü" filmində debüt rolunu (Seyran) oynayan aktyor bundan sonra ardıcıl olaraq filmlərə dəvət alıb, 50-yə yaxın ekran əsərində çəkilib. Həmçinin kinostudiyanın nəzdində fəaliyyət göstərən dublyaj studiyasında 20-yə yaxın yerli ("Ölsəm... bağışla" – Müdir

(rolu ifa edən Tofiq İsmayılov), “Alma almaya bənzər” – Mehdi (Fazil Salayev), “Bağ mövsümü” – Cabbar (Mirzə Babayev), “Evlənmək istəyirəm” – Şamil (Şamil Süleymanlı) və s.), onlarla xarici kino personajlarını ustalıqla səsləndirib. lk dəfə “Bakıda küləklər əsir” filmində (1974) əsgər (Ceyhun Mirzəyev) rolunu səsləndirən Yaşar Nuri, həmçinin “Sehrli çıraq” (Yaşik), “Qurbanəli bəy” (Qurbanəli bəy), “Kitabi-Dədə Qorqud. Basat və Təpəgöz” (Təpəgöz) animasiya filmlərində personajları ifadəli səsi ilə kiçikyaşlı tamaşaçılara təqdim edib. Teatr fəaliyyətində olduğu kimi, hər bir kino obrazı ilə də peşəkarlığını təsdiqləyən xarakterlər ustası bir ildə 2, bəzən 3 bədii filmə çəkilib, həmçinin “Mozalan” kinojurnalının 20-dən çox bədii süjetində maraqlı rollar yaradıb. “Mozalan” filmlərində oynadığı müdir (“Yeni iş üsulu”), baldızoğlu (“Baldızoğlu”), sərnişin (“Zərbə”), sərxoş (“Kömək”) kimi rolları ilə qeyri-normal xüsusiyyətə malik insanların gülüş və təəccüb doğuran cəhətlərini tənqid hədəfinə çevirib, davranış və düşüncələrini nəsillərin mühakiməsinə verib. Kino fəaliyyətinin ilkin mərhələsində sosial mövzulu filmlərə (geoloq Mərdan – “Bizi dağlarda axtarın”, Rauf – “Mezozoy əhvalatı”, Nazimzadə – “Şeytan göz qabağında”, Bəşir – “Musiqi müəllimi” və s.) dəvət alan aktyor tədricən dramatik (Kərbəlayı Cəfər – “Qəm pəncərəsi”, Məşədi Oruc – “O dünyadan salam”, Mahmud – “Qətl günü” və s.), komik (İsrafil – “Bəyin oğurlanması”, Makintoş – “Yol əhvalatı”, Məmməd – “Lətifə”) ekran personajları ilə müəllif aktyor mövqeyindən çıxış edib, cəmiyyəti narahat edən vacib məsələləri, insani münasibətləri yaradıcılıq meyarına çevirib. Kino xarakterləri yaddaşlara həkk edir, düşündürdüyünə görə də yaşadır. Yaşar Nurinin maraqlı, orijinal ekran obrazları yaddaşlarda iz salan, kinonun özünü yaşadan personajlardır. Əsl sənətkar qüdrəti də yaradıcılıqda düşüncələrə hakim kəsilmək, sənətin üstünlüyünü dönə-dönə sübut etməkdir. Yaşar Nuri bütün dövrlərin ehtiyac duyulan sənətkarı idi. Buna görə də teatr, kino fəaliyyəti ilə paralel olaraq dəvət aldığı televiziya tamaşaları ilə də uğuruna uğur qatdı, bir daha xalqın sevimlisinə çevrildi. Aktyorun 70-80-ci illərdə televiziya tamaşalarında oynadığı Göyüş (“Kişilər”), Mais (“Yollar görüşəndə...”), Həsənağa (“Göz həkimi”), Surxayzadə (“Evləri köndələn yar”), Əli bəy (“Ordan-burdan”), 11 personaj (“Qonşu qonşu olsa”), 4 personaj (“Ac həriflər”) və digər rolları göz önündə canlandıqca Yaşar Nuri sənətinin nurundan hər evə, hər ocağa bu gün də pay bölündüyü bir daha təsdiqini tapır. Peşəkar rejissorlarla təkrar-təkrar çalışan aktyorun yaradıcılığı sübut edir ki, rejissorlar onu sevərək filmlərinə, tamaşalarına dəvət edib, əminliklə rol veriblər.

Komik rollar ifaçısı kimi yaddaqalan aktyorun istər kinoda (Mahmud – “Qətl günü”, Asim Əliyeviç – “Nə gözəldir bu dünya...” və s.), istərsə də televiziya tamaşalarında (Qəhrəman – “Kökdən düşmüş piano”, Elçin – “Səndən xəbərsiz” və s.) oynadığı dramatik obrazlar, sözün əsl mənasında, həyat məktəbinə çevrilir, insan mənəviyyatını tədqiq edir. Onun personajları ədəbi əsərlərin məzmun yükünü böyük

məsuliyyət və qətiyyətlə üzərində daşımaqla mövzunun dərinliyinə varır, tamaşaçını mühitin ab-havasına salaraq əsərin ideyasını, məzmun dərinliyini cilalayır, düşündürür. İnsan xarakterində nəzərə çarpan cahillik və çılğınlıq onun dünyagörüşünün bariz nümunəsi, problemlərin başlanğıcıdır. Məhz bu mənanda incəsənətin və sənət adamının həyat hadisələrini təhlil edərək (yaradıcılıqda) nizama salmaqda rolu əvəzsizdir. Yaşar Nurinin də kinoda, televiziya tamaşalarında canlandırdığı personajların təfsirində meşşan (Qurbanəli bəy), sərxoş (Andrey Buslay), özündən müştəbeh (Dadaşov), xudbin (Qurbanov) xarakterlər qınanıldı, ailədə, məişətdə, ümumiyyətlə, cəmiyyətdə aktual olan mövzular təhlil edildi, təzadlı insan xarakterləri fonunda həyat məsələlərinin qəlizləşmə, münasibətlərin mürəkkəbləşmə səbəbləri açıqlandı.
I Aparıcı: İndi isə Yaşar Nurinin rol aldığı "Göz həkimi" komediya tipli film-tamaşadan Həsənağa ilə Gülərin epizodunu dinləyəcəyik. Film-tamaşa 1980-ci ildə ssenari müəllifi İslam Səfərli, rejissoru isə Lütfi Məmmədbəyova, bəstəkarı Sabir Əliyevə aid bir film-tamaşa kimi çəkildi. Tamaşadan Həsənağa ilə Gülərin dialoqunu təqdim edirik. İncəsənət Universitetinin tələbələri səhnəyə daxil olur. "Təcili yardım" maşınının şoferi Həsənağa pəncərənin qabağında kamer doldura-doldura oxuyur.
Həsənağa
Sular kimi duruldum gəl,
Gözlərinə vuruldum, gəl.
Mən qaraja tələsirəm,
İnsaf elə, yoruldum gəl.
Gəl Gülücan, gəl Gülücan, öz yarım, gəl.
Gəl Gülücan, gəl Gülücan, baharım, gəl.

Sən güləndə bahar olar,
Sənsiz könlüm xal-xal olar.
Şoferlərin məhəbbəti,
Maşın kimi pərgar olar.
Gəl, Gülücan, gəl Gülücan, öz yarım, gəl.
Gəl Gülücan, gəl Gülücan, baharım, gəl.

Əmir əmi əlində çaynik gəlir.
-Əmir əmioğlu, privet!
Əmir. Bəri bax,adama neçə dəfə deyərlər ki, klinikanın qapısı qarajxana deyil, hə? Balam, qarajın var, get qaxıl, otur orda. Canım, xəstələrə niyə mane olursan? Yəni deyirsən, əlindən professora bir raport da yazım?
Həsənağa: Ay Əmir əmioğlu, acığın niyə tutur? Sən buranın gözətçisisən, mən də xəstə daşıyanı. İndi klinikanın həyətidir də, istəyir o başı, istəyir bu başı.

Əmir: Bəri bax, özün bilirsən ki, kəmhövsələyəm, ta tul eləmə. Dəmir-dümürünü də götür çəkil qarajına.

Həsənağa: Həsənağa öz maşını ilə sənə qurban olsun, Əmir əmioğlu.
Əmir: Bəri bax, dil tökmə, sözün var, söz de.
Həsənağa: Dostam səniynən, vallah, institutumuzun gözüsən.
Əmir: Bəri bax, deyəsən, qraduzunu artırmısan axı? Səhərki adama oxşamırsan.
Həsənağa: Əmir əmioğlu, dilxor olanda piyandan pis oluram.
Əmir: Bəri bax, indiyə qədər içdiklərini, bir yerə töksən, Kaspi dənizicən olarmı?
Həsənağa: Əmir əmioğlu, bu ta ağ oldu da! Buradan Narginə ola, ya olmaya. Xəbərin var? Zalım uşağı qapımıza yenə top vurdu.
Əmir:Gədə, top nədir, yoxsa yenə ara qarışıb, hə?
Həsənağa: Ay kişi, panika salma, bu top o topdan deyil.
Əmir: bəri bax, uzaq vurannandır, yoxsa ayrəpələn vurannan?
Həsənağa: Ay kişi, səni başa salmaq üçün gərək əl-ayağınan danışam. Bax, bu topdan!(Əlindəki dolu kameri yerə atıb təpiklə vurur)
Əmir: Eh…rəhmətliyin oğlu, de ki, kos-kos oyunundan danışıram da. Mən də deyirəm, bəs bu nə deyir.
Həsənağa: Zarafat deyil e! "Neftçi" komandası əcdadına da belə uduzmamışdı.
Əmir: Bəri bax, bunun mənə dəxli yoxdur, kefin aşağıdır, get yenə iç, yuxarıdırsa papağını yanqılıcı qoyub dəniz kənarına çıx…
Həsənağa: Əmir əmioğlu, axı birini bilirsən, birini yox, yalquzaq deyiləm ki, tək dolanam, görəsən, Gülər yuxarıdadır?
Əmir: Necə bəyəm?
Həsənağa: Əmir əmioğlu, sən Həsənağanın ölmüşü, bir beş dağalığa xalatını ver yuxarı qalxım, ona bircə kəlmə sözüm var, deyim, qayıdım.
Əmir: Bəri bax, dünya tökülə bura, buraxan deyiləm, mənə xüsusi göstəriş var ki, icazəsi olmayanların birini də yuxarı buraxmayım.
Həsənağa: Sən Həsənağa canı.
Əmir: Bəri bax, üz vurma, mən tərəfkeşlik-zad bilmirəm, mən hamıya bir göznən baxıram.
Həsənağa: Yaxşıdır ki, bir göznən baxırsan, əgər iki göznən baxsaydın, klinikanın üstündən quş da uça bilməzdi.
Əmir: Adam öz peşəsinin qədrini bilməlidir. Bəs necə? Sən öz maşınını verərsən, özgəsi sürsün?
Həsənağa: Mən ölmüşəm? Həsənağanın maşınının səsi şəhərin bu başından gələndə polislər o başından svetaforu açırlar.
Əmir: Yəqin qorxurlar da.
Həsənağa: Xeyr, çünki mərifət sahibiyəm.
Əmir: Görürəm, yaman mərifət əhlisən. bəri bax, mən su doldurub qayıdana kimi dəmir-dümürünü götür çəkil qarajına, yoxsa professor bir raport da yazaram ha…

Həsənağa: Ayrı aləmsən, Əmir əmioğlu, ayrı aləm!
Əmir Əmi gedir, Həsənağa lap pəncərənin qabağına gəlib kameri doldura-doldura oxuyur.

Sənsiz maşınım çıxmaz yola,
Gəl, biz verək, yar, qol-qola.
O gün bilet tapammadım,
Bu gün gedək biz futbola.
Gəl Gülücan, gəl Gülücan, öz yarım, gəl.
Gəl Gülücan, gəl Gülücan, baharım, gəl.

Gülər pəncərəni açıb ona baxır.
Gülər: Get, nənəmin canı üçün səndən incimişəm, niyə gəlib məni ha bu futbola aparmadın?
Həsənağa: Gülücan, şoferlik pravama and içirəm ki, bütün şəhəri vurdum bir-birinə, bilet tapa bilmədim.
Gülər: Bəs, özün necə, getmişdin?
Həsənağa: Əşi, mənə nə var, divardan aşıb stadiona düşdüm. Gülücan, bir dağalığa aşağı düş, səniynən sözüm var…
Gülər: İşim var ey…Bu dəqiqə doctor İradə xanım birinci korpusda məni gözləyir.
Həsənağa: Gülücan, xəbərin var? Yeni binamızda özümü sənə qonşu saldırdım. Kvartiramın iki balkonu var. Birindən gilavar vurur, birindən xəzri.
Gülər: Deynən abrımı tökmüsən də.
Həsənağa: Düz nazirin özünə dedim. Bəs nə bilirsən, bu qara lələşinin ömründə sözü yerə düşməyib.
Gülər: Yaxşı, özündən boy demə, mən yubanıram.
Həsənağa: Özünə də qurban, işinə də. Yaxşı, onda mən qarajdayam, lazım olsam, xəbər verərsən. Saatda 120 ilə yanındayam.
II Aparıcı: Yaşar Nuri yaddaqalan obrazları ilə həmişə xalqımızın ürəyində yaşayacaq. Təkrarsız və bənzərsiz istedada malik bu sənətkar özünəməxsus lirik koloritlə tamaşaçıların rəğbətini qazanıb və istənilən azərbaycanlının sevimli aktyoruna çevrilib. Özünəməxsus səhnə mədəniyyəti və davranışı, improvizə qabiliyyəti, yaradıcılıq istedadı, obrazlara məxsusi yanaşma tərzi onu bir çox aktyor yoldaşlarından, həmkarlarından fərqləndirirdi. Onun film və tamaşalarda səsləndirdiyi bəzi fikirlər az qala hər birimizin dilində gündəlik işlədilən və tez-tez rast gəldiyimiz ifadəyə çevrilib. Yaşar Nurinin səsləndirdiyi "Sənə əjdaha lazımdır?", "Hə, nolsun", "Ay moment" və s. ifadələr bugünkü gündə tez-tez dilimizdə işlədilir və hər dəfə "Yaşar Nuri demişkən" söylənilib bu böyük sənətkarımız yad edilir. Bütün bunlar böyük aktyorumuza olan rəğbətdən irəli gəlir.
Belə bir məşhur fikir var: "Dünya bir pəncərədir, hər gələn baxar gedər..." Həqiqətən də belədir, lakin kimlərsə bu pəncərədən çox baxır, kimlərinsə ömür payına "pəncərədən" az müddət baxmaq nəsib olur... Yaşar Nuri də bu "həyat pəncərəsindən"

az müddət baxa bildi. Ancaq bu gün böyük sənətkarımızın əziz xatirəsi yaratdığı obrazlarla yad edilir və hər zaman ürəklərdə yaşayır.

Aktyor ömrü buzdan yaranmış heykəldir. Nə qədər ki, o səhnədə var, o heykəl görünür, elə ki o səhnədən getdi, artıq o buz da əriyib gedir, o heykəl yaddan çıxır. Amma Yaşar yaddan çıxmayan, əbədi insanların qəlbində yaşayan aktyordur.

"Hamımızın çox sevdiyimiz, gülüşünə, aktyorluğuna heyran olduğumuz Yaşar Nuridən bir də olmayacaq!"

Ruhu şad olsun!

Həmişə üzü, gözləri gülürdü.

Onun xoş, şirin çöhrəsinə baxanda hər kəsin içinə bir xoş, məhrəm bir təbəssüm qonurdu. Onu sevməmək mümkün deyildi.

Beləcə gəldi, insanlara sevinc, təbəssüm, gülüş bəxş etdi.

Güldü, güldürdü və getdi...

Amma vaxtından tez getdi.

Getdi və sevənlərini öz vaxtsız yoxluğu ilə təəccübləndirdi...

Amma Azərbaycanın teatr və kino tarixinə adını qızıl hərflərlə yazmağı bacardı.

...Oynadığı rollarla hamını güldürürdü.

Yaratdığı obrazlarla böyükdən kiçiyə hər kəsin sevgisini qazanmağı bacardı.

On iki ildir ki, vəfat edən dahi sənətkar xalqımızın qəlbində yaşayır və yaşayacaq.

Yaşar Nurinin tərəfindən deyilən sözlər və kəlamlar

Həsənağa: Papirosum yana-yana

Od düşüb şirin cana

Mən yarımla görüşdüm Əmir əmioğlu

İndi qal yana-yana

(Göz həkimi)

Nəsib: Əgər o fərli arvad olsaydı indiyə qədər onu bir kişi alardı

(Pəncərə)

İsrafil: Sənə əjdaha lazımdır?

(Bəyin oğurlanması)

Kiçik div: Mən elə bildim ki, onlar qorxub qaçarlar, tərsinə oldu

(Əzablı yollar)

Makintoj: Eybi yox mən onun əyri ayaqlarından raqatka düzəltməsəm, atamın oğlu deyiləm

(Yol əhvalatı)

Televiziyada, kinoda çəkiləndə yoruluram. Amma səhnədə heç vaxt yorulmuram. Daha doğrusu bu yorğunluqdan ləzzət alıram.

Sənətə gəlməyimdə, aktyor olmağımda atamın rolu şübhəsiz ki, böyükdür. Çox güman ki, o, aktyor olmasa idi, mən də bu sənətə bağlanmazdım.

Mən istər teatrda, istər televiziyadaŞ, istərsə də kinoda demək olar ki, bütün rejissorlarla işləmişəm.

Aldığı adlar və mükafatlar

Azərbaycan SSR-in Əməkdar Artisti fəxri adı.

Azərbaycan Lenin Komsomolu Mükafatı.

Azərbaycan SSR Xalq Artisti fəxri adı.

"Yaramaz" filmindəki Maşallah roluna görə Azərbaycan Respublikasının Dövlət Mükafatı.

"Qızıl dərviş" Mükafatı.

"Qızıl dərviş" Mükafatı.

Azərbaycan Respublikası Prezidentinin I dərəcəli mükafatı.

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü.

"Şöhrət" ordeni.

Milli Kino Mükafatı.

Teatr səhnəsindəki rolları

Tapdıq  (Toy kimindir? - Məhərrəm Əlizadə)

Bədəl (Hacı Qara - Mirzə Fətəli Axundov)

Silva (Övlad - Aleksandr Vampilov)

Pərviz (Bağlardan gələn səs - İlyas Əfəndiyev)

Cığatay (Yağışdan sonra - Bəxtiyar Vahabzadə)

Sqanare l (Bəşərin komediyası və yaxud Don Juan - Mirzə İbrahimov)

Namiq (Şəhərin yay günləri - Anar)

Sərsəm Salman (Dəli yığıncağıv - Cəlil Məmmədquluzadə)

Qulaməli (Müsyö Jordan və Dərviş Məstəli Şah - Mirzə Fətəli Axundzadə)

Əbdüləli bəy (Sevil - Cəfər Cabbarlı)

Qasım (Quşu uçan budaqlarv - Əkrəm Əylisli)

Eduard (Yad adam - Leonqard Frank)

Polkovnik Əmir (Səhra yuxuları - Anar)

Qurbanqulu (Mirzə Şəfi Vazeh - Nəbi Xəzri)

Molla Nəsrəddin (Sizi deyib gəlmişəm... - Anar)
Ziyad (Məhəbbət yaşadır - Nahid Hacıyev)
Rəhman (Fəryad - Bəxtiyar Vahabzadə)
Aktyor (Həyatın dibində - Maksim Qorki)
Odakar (Böyük Romul - Fridrix Dürrenmatt)
Altunbay (Od gəlini - Cəfər Cabbarlı)
Mirzə Həbib (Lənkəran xanının vəziri - Mirzə Fətəli Axundzadə)
Böyükağa (Günah - Rəhman Əlizadə)
Conatan Piçem (Üç quruşluq opera - Bertolt Brext və Kurt Vayl)
Davud (Bizim qəribə taleyimiz - İlyas Əfəndiyev)
Xanəhməd (Qızıl teşt - Seyran Səxavət)
Abdi (Qanlı Nigar - Sadıq Şəndil)
Şahməmməd (Gülüstanda qətl - Cəmil Əlibəyov)
Balaş (Sevil - Cəfər Cabbarlı)
Salmanov (Toy)
Neznamov (Günahsız müqəssirlər)
Alışov (Kəndçi qızı - Mirzə İbrahimov)
Kürd Musa (Vaqif - Səməd Vurğun)
Məşədi Oruc (Ölülər - Cəlil Məmmədquluzadə)
Bayandur (Büllur sarayda - İlyas Əfəndiyev)
Səlim (Yollara iz düşür - Bəxtiyar Vahabzadə)
Şahbaz (Hara gedir bu dünya - Bəxtiyar Vahabzadə)
İsgəndərzadə (Ah  Paris… Paris!.. - Elçin)
Şöbə müdiri (Mənim sevimli dəlim - Elçin)
Tanrıqut (Sokratı anma gecəsi - Çingiz Aytmatov və M. Şabanov)
Yoldaş Əmrah (Bu dünyanın adamları - Hidayət Orucov)
Sərsəri (Kəllə - Nazim Hikmət)
Kommunist partiyasının lideri (Hərənin öz payı - Xeyrəddin Qoca)
Nəcəf (Brüsseldən məktublar - Həsən Həsənov)
Xandəmir (Afət - Hüseyn Cavid)
Milan (Biganələr otelində - Rüstəm İbrahimbəyov)
Məzarçı (Hamlet - Uilyam Şekspir)
Ağamusa Nağıyev (Mesenat - Əli Əmirli)
Kürən (Xəcalət - Hüseynbala Mirələmov)
Soltan bəy (Arşın mal alan - Üzeyir Hacıbəyov)

Filmoqrafiya

Ruhəngiz Qasımovanın «Qonşu, qonşu olsa…» (on bir müxtəlif tip), «Yollar görüşəndə» (Yaşar),

İsi Məlikzadənin «Qatarda» (Dadaşov),
Anarın «Evləri köndələn yar» (Surxayzadə),
Hüseyn Cavidin «Topal Teymur» (Cücə),
Mövlud Süleymanlının «Kökdən düşmüş piano» (Nəriman),
Üzeyir Hacıbəyovun telenovellaları əsasında «Ordan-burdan» (Fotoqraf Əli bəy),
Mehdi Hüseynin «Alov» (Bədəl),
Ənvər Məmmədxanlının «Şərqin səhəri» (Nəcəf dayı),
Anatoli Dudarevin «Astana» (Andrey Buslay),
Aslan Qəhrəmanovun «Bağışla»,«Səni axtarıram»,
«Səndən xəbərsiz» (Elçin) trilogiyası,
Anarın «Nigarançılıq» (Qurbanəli bəy)

1970-ci illər

1975 — "Əlamətdar hadisə" (Televiziya tamaşası)
1975 — "Dörd bazar günü" (Seyran)
1977 — "Ad günü" (Eldar)
1977 — "Şir evdən getdi" (Heyvanxana nəzarətçisi)
1978 — "Dantenin yubileyi" (Eldar)
1979 — "Yollar görüşəndə..." (Televiziya tamaşası)

1980-ci illər

1980 — "Yol əhvalatı" (Makintoş)
1981 — "Narahatlıq" (Müxbir)
1981 — "Ömrün yolları" (Televiziya tamaşası)
1982 — "Əzablı yollar" (Cin)
1984 — "Musiqili xaş" (Qısa film)
1984 — "Topal Teymur" (Şair Kirmani)
1985 — "Bəyin oğurlanması" (İsrafil)
1985 — "Pəncərə" (Televiziya tamaşası)
1986 — "Yay günlərinin xanımı"
1987 — "Kişi sözü" (Niyaz)
1987 — "Sürəyya" (Musaxan)
1988 — "Yaramaz" (Maşın alverçisi)
1989 — "Lətifə" (Məmməd)
1989 — "Ölsəm, bağışla" (Rəhman)

1990-cı illər

1991 — "Qəzəlxan" (Müttəhim)
1991 — "Pəncərə" (Nəsib)
1993 — "Ac həriflər" (Həsən dayı / Zaeatbəy)
1993 — "Fəryad" (Erməni hərbçisi)
1994 — "İtkin gəlin" (Serial)
1995 — "Fransız" (Ataxan)
1995 — "Həm ziyarət, həm ticarət..." (Şamil)

1996 — "Yarımştat" (Televiziya tamaşası)
1998 — "Nigarançılıq" (Televiziya tamaşası)
1998 — "Spasibo"
2000-ci illər və sonrası

2001 — "Nekroloq" (Həsən)
2001 — "Yuxu" (Xəlil)
2002 — "Hacı Qara" (Hacı Qara)
2003 — "Dəvətnamə" (Televiziya tamaşası)
2004 — "Məkanın melodiyası" (Əli)
2004 — "Milli bomba" (Məmməd)
2005 — "Girov" (Kənd sakini)
2006 — "Yoxlama" (Müfəttiş)
2012 — "Həyat varsa..." (Serial — Son rollarından biri)

**Ədəbiyyat siyahısı:**


Kitablar:

1. İ.Rəhimli. Səhnəyə qovuşan cığırlar: Bakı, "Aspoliqraf", 2013, 568 s.
2. İ.Rəhimli. Səhnə fədailəri. Bakı, "Şərq-Qərb", 2018, 616 s.

İnternetdə:

**https://mia.az/w1002545/quotheyat-kino-kimidir-en-sirin-anda-bitirquot-yasar-nurinin-heyat-yolu-2020-11-23-175439**
**https://www.azerbaijan-news.az/az/posts/detail/xalq-artisti-yashar-nurinin-65-illiyine-hesr-olunmush-xatire-gecesi-kechirilib-69946**

**https://medeniyyettv.az/az/news/46739880/xalq-artisti-yashar-nurinin-anadan-olmasinin-70-illiyi-qeyd-edilib**

**https://kulis.az/xeber/media/ona-qarsi-colorredvnimatelnicolor-olmadilar-yasar-nurinin-fexri-ada-hesret-qalan-atasi-colorredmaraqli-faktlar-color-36840**